**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRİ**

# Ə M R

№ 24

Bakı şəhəri "15" aprel 2015-ci il

**"Ak. Z.Əliyeva ad. Milli Oftalmologiya Mərkəzinin strukturunda Gəncə şəhər filialının yaradılması barədə"**

Gəncə şəhərində və ətraf rayonlarda yaşayan əhaliyə göstərilən oftalmoloji yardımın müasir səviyyədə təşkili məqsədilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında əsasnamənin 14.3-cü bəndini rəhbər tutaraq

## ƏMR EDİRƏM:

1. Akademik Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin strukturunda Gəncə şəhər filialı yaradılsın.

2. Akademik Z.Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin direktoru E.Qasımova tapşırılsın:

2.1. Gəncə şəhər filialının yaradılması ilə əlaqədar mərkəzin ştat cədvəli müvafiq dəyişikliklər edilərək müəyyən olunmuş qaydada təsdiq edilsin;

2.2. bu əmrin 1-ci bəndindən irəli gələn digər məsələlər həll edilsin.

3. Əmrin icrasına nəzarət Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova həvalə edilsin.

**Oqtay Şirəliyev**